**"Bank Respublika" Açıq Səhmdar Cəmiyyətinin**
**Səhmdarlarının 06 oktyabr 2023-cü il tarixdə keçirilmiş 03 saylı Növbədənkənar Ümumi Yığıncağının protokolundan**

**ÇIXARIŞ №07**

**Bakı şəhəri** **11.10.2023**

Səhmdarların Növbədənkənar Ümumi Yığıncağı Bakı şəhəri, Xaqani küçəsi 21 ünvanında yerləşən "Bank Respublika" ASC-nin ("Bank") Baş ofisində və iclasa gələ bilməyənlər üçün Zoom video-konfrans sistemi ilə 06 oktyabr 2023 - cü il tarixdə saat 12:00-da başlayıb və həmin gün saat 12:10-da başa çatıb.

Yığıncaqda bankın aşağıdakı səhmdarları iştirak edirdilər:

| # | Səhmdarlar | % | Səhmlər |
|---|---|---|---|
| 1 | Quliyev Natiq Saday oğlu | 63.30% | 18,978,471 |
| 2 | Quliyev Elçin Saday oğlu | 18,46% | 5,534,662 |
| 3 | Quliyev Namiq Saday oğlu | 8,47% | 2,538,794 |
| 4 | Rəhimov Şakir Xəyyam oğlu | 5.45% | 1,632,654 |
| 5 | Abasov Aslan Ələskər oğlu | 0.05% | 14,360 |
| **Ümumi** | | **95.73%** | **28,698,941** |

Ümumi səhmlərin sayı: **29,984,118**
Ümumi iştirak edən səhmlərin sayı: **28,698,941**
İştirak edən səhmlərin səslərinin faiz nisbəti: **95.73%**
Yetərsay təmin olunmuşdur və yığıncaq səlahiyyətli sayılır.
Müşahidə Şurası yığıncaq üçün aşağıdakı gündəliyi təsdiq edib:

**Gündəlik**

3. "Bank Respublika" ASC tərəfindən yeni səhmlərin buraxılması yolu ilə nizamnamə kapitalının artırılmasının təsdiq edilməsi.
4. Yeni səhmlərin buraxılması və nizamnamə kapitalının artırılması ilə əlaqədar "Bank Respublika" ASC-nin Nizamnaməsinə müvafiq dəyişikliyin təsdiq edilməsi.

**MƏSƏLƏLƏR ÜZRƏ:**

3. **"Bank Respublika" ASC tərəfindən yeni səhmlərin buraxılması yolu ilə nizamnamə kapitalının artırılmasının təsdiq edilməsi.**

Gündəlikdə duran üçüncü məsələ ilə bağlı çıxış edən "Bank Respublika" ASC-nin İdarə Heyəti Sədrinin müavini Aslan Abasov qeyd etdi ki, "Bank Respublika" ASC-nin nizamnamə kapitalının artırılması təklif olunur.

Bildirildi ki, "Bank Respublika" ASC-nin (VÖEN: 9900001901, Hüquqi ünvan: Bakı ş., AZ1000, Xəqani küçəsi 21) (Emitent) nizamnamə kapitalının hər birinin nominal dəyəri 2.45

AZN (iki manat, qırx beş qəpik) olan 204 082 (iki yüz dörd min səksən iki) ədəd adi, sənədsiz, adlı səhmlərin buraxılışı (kütləvi təklif üsulu ilə yerləşdirilməklə) yolu ilə artırılması nəzərdə tutulmuşdur.

Buraxılacaq səhmlərin ümumi dəyəri bankın hazırkı nizamnamə kapitalının on faizindən az olmaqla, 500,000.90 (beş yüz min manat, doxsan qəpik) manat nəzərdə tutulur. Buraxılacaq səhmlərin onun sahiblərinə aşağıda sadalanan hüquqları verəcəyi iclas iştirakçılarının diqqətinə çatdırılmışdır:

- Emitentin idarə edilməsində Azərbaycan Respublikasının qanunvericiliyi və Emitentin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək;
- Qanunvericiliklə müəyyən edilmiş qaydada Emitentin fəaliyyətinə dair malumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- Emitentin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək;
- Emitentin xalis mənfəətindən dividend almaq;
- Emitentin fəaliyyətinə xitam verildikdə, onun kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Emitentin yerdə qalan əmlakının payına mütənasib hissəsini almaq;
- Azərbaycan Respublikasının hüquqi aktlarında və Emitentin nizamnaməsində nəzərdə tutulmuş digər hüquq və vəzifələrə malikdirlər.

Bildirilmişdir ki, kütləvi qaydada "Bakı Fond Birjası" QSC-də yerləşdiriləcək səhmlərin anderrayteri kimi "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (VÖEN: 1402281511, Hüquqi ünvan: AZ1095, Bakı şəh. Lev Tolstoy 170, Faktiki ünvan: AZ 1065, Bakı şəh., C.Cabbarlı, 44 (Caspian Plaza) çıxış edəcəkdir və abunə yazılışı dövründə anderrayter öz səlahiyyətləri çərçivəsində potensial investorları emissiya şərtləri ilə tanış edəcəyi, emissiya şərtlərini onlara izah edəcəyi, sifarişlərin hazırlanmasına kömək edəcəyi və sifarişləri qəbul edəcəyi iştirakçıların diqqətinə çatdırılmışdır.

Səhmlərin kütləvi yerləşdirilməsi qaydası və abunə yazılışı ilə bağlı iştirakçılara aşağıdakı məlumatlar təqdim edilmişdir:

- **Səhmlərə abunə yazılışının qaydası:**
  Abunə yazılışı internet sayt vasitəsilə elektron və ya yazılı şəkildə bildirişlərin təqdim edilməsi yolu ilə keçiriləcəkdir.

- **Abunə yazılışının minimum və maksimum məbləği:**
  Buraxılış üzrə minimum məbləğ olaraq 500,000.90 (beş yüz min manat, 90 qəpik) manat məbləğində 204 082 (iki yüz dörd min səksən iki) ədəd səhmin yerləşdirilməsi nəticəsində emissiya baş tutmuş hesab olunur. Qəbul edilən 500,000.90 (beş yüz min manat, 90 qəpik) manat məbləği yığıldıqdan sonra abunə yazılışı dayandırılır.

- **Abunə yazılışının başlama və bitmə tarixi:**
  Başlama tarixi: Abunə yazılışı səhmlərin buraxılışı dövlət qeydiyyatına alındığı tarixdən 15 (on beş) iş günü sonra başlanır.
  Bitmə tarixi: Abunə yazılışı başlandıqdan sonra 10 (on) iş günü ərzində başa çatır. Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixi elan olunur və bu barədə abunə yazılmış şəxslərə yazılı bildiriş göndərilir.

- **Səhmlərin yerləşdirilməsinin başlama və bitmə tarixi:**

Başlama tarixi Abunə yazılışı başa çatdıqdan sonra 5 (beş) iş günü ərzində (elanda qeyd olunan tarixdən) səhmlərin yerləşdirilməsinə başlanır.
Bitmə tarixi: Yerləşdirmə başlandığı tarixdən sonra 7 (yeddi) iş günü ərzində başa çatır.

- **Səhmlərin yerləşdirilməsi qaydası:**
  Səhmlər Bakı Fond Birjasında kütləvi təklif üsulu ilə yerləşdirilir. Bununla bağlı "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və "Bank Respublika" ASC-nin ( www.bankrespublika.az ) saytında elan yerləşdirilir.

  İlk növbədə, əlavə buraxılan səhmləri almaqda üstünlük hüququ olan Emitentin adi səhmlərinə malik səhmdarlarının səhmlərin alınması üçün təqdim etdikləri sifarişlər təmin olunur.

- **Səhmlərin dəyərinin ödənilməsi qaydası:**
  Səhmlərin dəyəri nağdsız qaydada milli valyutada (manatla) ödənilir. Səhmlərin alınması investisiya şirkəti vasitəsilə həyata keçirilir. Bu vəsaitlər Bank Fond Birjasında alqı-satqı aktının keçirilmə vaxtından gec olmayaraq İnvestisiya şirkətinin Hesablaşma agentində açılmış bank hesabına köçürülməlidir.

  Yerləşdirilmənin başlanma tarixində 1 (bir) ədəd səhmin satış qiyməti 2.45 AZN (iki manat, qırx beş qəpik) manat olaraq müəyyən edilir.

- **Üstünlük hüququnun istifadəsi:**
  Üstünlük hüququna malik olan səhmdarlar sahmlərin Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixdən maliyyə bazarlarının tənzimləyicisinin "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar"na əsasən ilk 2 (iki) iş günü ərzində üstünlük hüququndan istifadə edə bilər.

**QƏRARA ALINDI:**

**MƏSƏLƏ 3:**

"Bank Respublika" ASC-nin nizamnamə kapitalının hər birinin nominal dəyəri 2.45 AZN (iki manat, qırx beş qəpik) olan 204 082 (iki yüz dörd min səksən iki) ədəd adi səhmlərin buraxılışı (kütləvi təklif üsulu ilə yerləşdirilməklə) yolu ilə artırılması məqbul hesab edilsin:

- Buraxılacaq səhmlərlə təsbit olunan hüquqlar aşağıdakılardır:
  - Emitentin idarə edilməsində Azərbaycan Respublikasının qanunvericiliyi və Emitentin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək
  - Qanunvericiliklə müəyyən edilmiş qaydada, Emitentin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
  - Emitentin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək;
  - Emitentin xalis mənfəətindən dividend almaq;
  - Emitentin fəaliyyətinə xitam verildikdə, onun kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Emitentin yerdə qalan əmlakının payına mütanasib hissəsini almaq;
  - Azərbaycan Respublikasının hüquqi aktlarında və Emitentin nizamnaməsində nəzərdə tutulmuş digər hüquq və vəzifələr.

- Buraxılışın anderrayteri investisiya şirkəti olan "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC (VÖEN: 1402281511, Hüquqi ünvan: AZ 1095. Bakı şəh., Lev Tolstoy, 170. Faktiki ünvan: AZ 1065, Bakı şəh., C.Cabbarlı, 44 (Caspian Plaza)) müəyyən olunsun;
- Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə investisiya şirkəti vasitəsilə "Bakı Fond Birjası" QSC-nin (bundan sonra — Fond Birjası) ticarət platformasında həyata keçirilir və alqı-satqı əqdləri Fond Birjası vasitəsilə bağlanılır. Bununla bağlı müraciət Mərkəzi Bank tərəfindən bu səhmlərin buraxılışının dövlət qeydiyyatı başa çatdıqdan sonra həyata keçirilir.
- Səhmlərə Abunə yazılışı internet sayt vasitəsilə elektron və ya yazılı şəkildə bildirişlərin təqdim edilməsi yolu ilə keçirilir;
- Abunə yazılışının minimum və maksimum məbləği:
  - Buraxılış üzrə minimum məbləğ olaraq edilən 500,000.90 (beş yüz min manat, 90 qəpik) manat məbləğində 204 082 (iki yüz dörd min səksən iki) ədəd səhmin yerləşdirilməsi nəticəsində emissiya baş tutmuş hesab olunur. Qəbul edilən edilən 500,000.90 (beş yüz min manat, 90 qəpik) manat məbləği yığıldıqdan sonra abunə yazılışı dayandırılır.
- Səhmlərin abunə yazılışının başlanma və başa çatma tarixləri:
  - Abunə yazılışı səhmlərin buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra 15 (on beş) iş günü sonra başlanılır;
  - Abunə yazılışı başlandıqdan sonra 10 (on) iş günü ərzində başa çatır;
- Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixi barədə abunə yazılmış şəxslərə yazılı bildiriş göndərilir, həmçinin bununla bağlı "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və "Bank Respublika" ASC-nin ( www.bankrespublika.az ) saytında elan yerləşdirilir;

-

- Səhmlərin yerləşdirilməsinin başlama və bitmə tarixi:
  - Abunə yazılışı başa çatdıqdan sonra 5 (beş) iş günü ərzində (elanda qeyd olunan tarix) səhmlərin yerləşdirilməsinə başlanır;
  - Yerləşdirmə başlandığı tarixdən sonra 7 (yeddi) iş günü ərzində başa çatır.
- Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçirilir:
- İlk 2 (iki) iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında yerləşdirilir;
- Digər investorlar arasında yerləşdirilir.
- Səhmlərin dəyəri nağdsız qaydada milli valyutada (manatla) ödənilir. Səhmlərin alınması invesitisiya şirkəti vasitəsilə həyata keçirilir. Səhmlərin dəyəri Bank Fond Birjasında alqı-satqı aktının keçirilmə vaxtından gec olmayaraq İnvestisiya şirkətinin Hesablaşma agentində açılmış bank hesabına köçürülməlidir;
- Bu qərardan irəli gələn qanunvericiliklə müəyyən olunan bütün lazımi tədbirlərin görülməsi İdarə Heyətinə tapşırılsın.

4. **Yeni səhmlərin buraxılması və nizamnamə kapitalının artırılması ilə əlaqədar "Bank Respublika" ASC-nin Nizamnaməsinə müvafiq dəyişikliyin təsdiq edilməsi.**

**<u>Qərara alındı 4:</u>**

Yeni səhmlərin buraxılması və nizamnamə kapitalının artırılması ilə əlaqədar "Bank Respublika" ASC-nin Nizamnaməsinin 4.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"4.1. Bankın nizamnamə kapitalı 73,961,090.00 (yetmiş üç milyon doqquz yüz altmış bir min doxsan) manat olmaqla, hər birinin nominal dəyəri 2.45 (iki manat qırx beş qəpik) manat olan 30,188,200.00 (otuz milyon yüz səksən səkkiz min iki yüz) ədəd adi səhmdən ibarətdir."

Bu qərardan irəli gələn qanunvericiliklə müəyyən olunan bütün lazımi tədbirlərin görülməsi İdarə Heyətinə tapşırılsın.

**SƏSVERMƏNİN NƏTİCƏLƏRİ:**

| Qərarların №-si | Lehinə | Əleyhinə | Bitərəf |
|---|---|---|---|
| 1 | **28,698,941** səs (100% iştirak edən səsdən) | 0 | 0 |
| 2 | **28,698,941** səs (100% iştirak edən səsdən) | 0 | 0 |
| 3 | **28,698,941** səs (100% iştirak edən səsdən) | 0 | 0 |
| 4 | **28,698,941** səs (100% iştirak edən səsdən) | 0 | 0 |

Bu protokol yığıncağın sədri və katibi tərəfindən imzalandıqdan sonra yuxarıda göstərilən tarixdən qüvvəyə minir.

Azərbaycan və ingilis dilində hazırlanmış hər iki protokol eyni hüquqi qüvvəyə malikdir.

**Şakir Rəhimov**
Yığıncağın Sədri:____________________

**Aslan Abasov**
Yığıncağın katibi:____________________

Bu sənəddə "23" vərəq

tikilib nömrələnmişdir

Bank Respublika
SƏNƏDLƏR ÜÇÜN
Açıq Səhmdar Cəmiyyəti